# COP29 Azərbaycanda turizmin inkişafına da təkan verəcək

**Azərbaycanda turizm sənayesi qeyri-neft sektorunun əsas istiqamətlərindən sayılır. Baxmayaraq ki, COVID-19 pandemiyası bu sahənin inkişafını bir qədər zəiflətmişdi, amma həmin bəla çəkiləndən sonra o, sürətlə dirçəlməyə başladı. Ölkəmizə yenidən təkcə Avropa və körfəz ölkələrindən deyil, Hindistan, Pakistan, Banqladeş, Türkiyə, Rusiya, Ukrayna, İrandan turistlər axın etdilər.**







Turizm ölkə iqtisadiyyatının inkişafında, Azərbaycanın regional və beynəlxalq turizm bazarında xüsusi mərkəzlərdən birinə çevrilməsində, müsbət imicinin formalaşmasında, ölkə daxilində isə məşğulluğun təmin olunmasında, eləcə də biznes mühitinin genişlənməsində mühüm rol oynayır. Bu baxımdan Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) da turizm sektoruna təsirsiz ötüşməyəcək. Çünki COP29 kimi beynəlxalq səviyyəli, sanballı və nüfuzlu tədbirlər əsasən müasir infrastruktura malik olan sabit və təhlükəsiz ölkələrdə keçirilir. Elə turizm sektorunun tələb etdiyi əsas meyarlar da bunlardır. Azərbaycan noyabrda 70-80 min xarici qonağı ən yüksək səviyyədə qarşılamalı, onların xidmətində durmalı və xoş təəssüratla öz ölkələrinə dönmələrini təmin etməlidir. Əgər ölkəmiz bunu bacaracaqsa (və heç kim buna şübhə etmir), bu həm də turizm infrastrukturu hesabına olacaq.

COP29 tədbirləri başa çatandan sonra Azərbaycanda ekoloji turizmin inkişafında böyük sıçrayış olacağı qaçılmazdır. Ekoloji turizm isə dünyada turizm növləri arasında ilk sıradadır. Bu sahənin ekspertlərinin dediyinə görə, turizm potensialı geniş olan Azərbaycanın ildə 5 milyondan çox turisti qəbul etmək üçün imkanı var. Faktlara müraciət edək: bu gün ölkəmizdə irili-xırdalı təxminən 800 hotel fəaliyyət göstərir. Təkcə keçən il onlar 187 ölkədən 2 milyondan çox əcnəbi qonaq qəbul ediblər ki, bu da 2022-ci illə müqayisədə 30,2 faiz çoxdur.

Turizm agentlikləri COP29-dan dolayı Bakıya gələn xaricilərin hotellərə yerləşdirilməsi, istirahətlərinin təşkili, paytaxtımızla tanışlıq kimi məsələləri diqqətdə saxlamaq üçün indidən fəaliyyətə başlayıblar. Onlar bilirlər ki, Bakı 11-24 noyabrda dünyanın ekoloji mərkəzi olacaq və hər kəsin gözü Azərbaycana dikiləcək. Bəşəriyyətin başı üstünü iqlim dəyişikliyindən dolayı alan fəlakətlərdən xilas yollarının müzakirə ediləcəyi həmin günlər Azərbaycan qonaq-qara sarıdan korluq çəkməyəcək.

Dünyanı yaşıllaşdırmağın, bəşəriyyəti xilas etməyin bir yolu da ekoturizmdən keçir. Ekoloji turizm dayanıqlı olmaqla ətraf mühitə qayğını və diqqəti özündə ehtiva edir. Bu növ turizmin digərlərdən fərqi ətraf mühitin qorunmasının hədəflənməsi, təbiətdən zövq almağa şərait yaratmasıdır. COP29-un da fəaliyyət növlərindən biri elə budur. Ekoturizm və COP29 eyni məqsədə xidmət etdiyi üçün Azərbaycanın turizm sənayesi bu istiqaməti nəzərə alır.

Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası elan edilməsi bu işdə turizmin əlindən tutur. Beynəlxalq tədbirin iştirakçıları işğaldan azad edilmiş ərazilərə səfər edərkən bütün mənzərəni öz gözləri ilə görəcək, ermənilərin viran qoyduğu yurd yerlərinin necə dəyişdiyinə şahid olacaqlar. Regionlara üz tutan əcnəbilərə bələdçilik edəcək yerli turizm operatorlarının nümayəndələri qlobal tədbirin nahaqdan Azərbaycanda keçirilmədiyini hər kəsə göstərəcəklər. Yeri gəlmişkən, bu gün bizim bələdçilər beynəlxalq standartlar səviyyəsində 27 dildə fəaliyyət göstərə bilirlər. Bununla belə, təlimsiz və təhsilsiz bələdçilər də var və onlar üçün COP29-un başlayacağı vaxta kimi xüsusi kurslar keçiriləcək. Bir sözlə, Azərbaycanın tanıdılması COP29 günlərində turizm sektorunun birnömrəli vəzifəsinə çevriləcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 17 aprel, № 76.- S.7.